AZƏRBAYCAN BEYNƏLXA...

Azərbaycan Respublikası adından

**QƏTNAMƏ**

**İş № 2(103)-2736/2016**
**07 aprel 2016-cı il**

**Bakı şəhəri**

**Bakı Apellyasiya Məhkəməsinin**
**Mülki Kollegiyası**

Sədrlik edən - hakim Xuraman Böyükağa qızı Məhərrəmova

Hakimlər İsmayıl Şamil oğlu Vəliyev və Elnur Məmmədsaat oğlu Həsənovdan ibarət tərkibdə

Kənan Hüseyn oğlu Hüseynovun katibliyi

İddiaçının nümayəndəsi Layıcov Aqil Tacir oğlunun iştirakı ilə

Bakı şəhəri Nəsimi rayon Məhkəməsinin 18 yanvar 2016-cı il tarixli 2(006)-256/2016 saylı qətnaməsindən cavabdeh tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq,

müəyyən etdi:

İddiaçı Yaqublu Orxan Kamal oğlu cavabdeh "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə qarşı tutulmuş məbləğin və əlavə faizin geri qaytarılması tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə ondan pulun tutulmasının qadağan edilməsi və "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən tutulmuş 511 (beş yüz on bir) manat əsas məbləğ, 30 (otuz) manat dövlət rüsumu, 1000 (min) manat hüquqi xidmət haqqının tutularaq ona ödənilməsi barədə qətnamə qəbul edilməsini məhkəmədən xahiş etmişdir.

İddia tələbi onunla əsalandırılmışdır ki, o, Azərbaycan Respublikası DİN-də müstəntiq vəzifəsində işləyir. İşlədiyi dövr ərzində o, mərhum iş yoldaşı, polis polkovnik leytenantı, baş müstəntiq Musayev Mübariz Nadir oğlunun 10 fevral 2015-ci il tarixdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən 24 ay müddətinə götürdüyü 6800 (altı min səkkiz yüz) manat məbləğində kreditin təminatı olaraq 10 fevral 2015-ci il tarixli zaminlik müqaviləsi ilə zamin olmuşdur. Kredit müqaviləsi üzrə borc, borclu mərhum Musayev Mübariz Nadir oğlu tərəfindən vaxtlı-vaxtında ödənilmişdir. Borclu rəhmətə gedəndə də həmin günə Bank qarşısında heç bir öhdəliyi yox idi və gecikməyə düşməmişdi, hətta vaxtından əvvəl bəzi məbləğləri ödəmişdir. Borclu dünyasını dəyişdikdən sonra zamin olaraq onun bankda olan maaş hesabından həyatda olmayan borclunun kredit borcu tutulmuşdur. Onun əmək haqqından 01 yanvar 2015-ci il tarixində kredit borcuna yönəlmək üçün Bank tərəfindən 158 (yüz əlli səkkiz) və 353 (üç yüz əlli üç) manat olmaqla, cəmi 511 (beş yüz on bir) manat məbləğində pul tutulmuşdur. Kartında olan həmin məbləğ isə onun əmək haqqıdır,

ona görə də əmək haqqının verilməməsi və gecikdirilməsinə görə analoji norma tətbiq edilərək faiz də hesablanmalıdır.

İddiaçı Yaqublu Orxan Kamal oğlu iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək, onunla "Azərbaycan Beynəlxalq Bankı" ASC arasında bağlanmış 10 fevral 2015-ci il tarixli 2408-10.02.2015-ci S21 nömrəlizaminlik müqaviləsinə xitam verilməsi və ondan tutulan 1577 (min beş yüz yetmiş yeddi) manatın geri qaytarılması barədə qətnamə qəbul edilməsini məhkəmədən xahiş etmişdir.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin (hakim Azər Paşayev) 18 yanvar 2016-cı il tarixli 2(006)-256/2016 saylı qətnaməsi ilə иddia tələbi qismən təmin edilmiş, «Azərbaycan Beynəlxalq Bankı» ASC-dən 1577 (min beş yüz yetmiş yeddi) manat məbləğində pulun alınaraq Yaqublu Orxan Kamal oğluna qaytarılması qət olunmuş, iddia tələbi qalan hissədə təmin edilməmişdir.

Cavabdeh «Azərbaycan Beynəlxalq Bankı» ASC apellyasiya şikayəti verərək, Bakı şəhəri Nəsimi rayon Məhkəməsinin 18 yanvar 2016-cı il tarixli qətnaməsinin ləğv edilməsini və iddia tələbinin rədd edilməsini xahiş etmişdir.

İddiaçının nümayəndəsi Layıcov Aqil Tacir oğlu məhkəmə kollegiyasının iclasında apellyasiya şikayətinə etiraz edərək təmin olunmamasını, qətnamənin dəyişdirilmədən saxlanılmasını xahiş etdi.

Cavabdeh «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin nümayəndəsi məhkəmə kollegiyasının iclasına gəlməmişdir. Məhkəmə kollegiyası işə onun nümayəndəsinin iştirakı olmadan baxılmasını mümkün hesab etmişdir.

Məhkəmə kollegiyası, sədrlik edənin işin hallarına dair məruzəsini, işdə iştirak edən iddiaçının nümayəndəsinin izahatını dinləyib, təqdim edilmiş sübutları tədqiq edib, apellyasiya şikayətinin dəlillərini müzakirə edərək hesab edir ki, birinci instansiya məhkəməsinin qətnaməsi maddi və prosessual qanunun tələblərinə uyğun çıxarıldığına görə dəyişdirilmədən saxlanılmalı, apellyasiya şikayəti əsassız olduğundan rədd edilməlidir.

Belə ki, iş materiallarında olan "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin Mərkəzi filialı ilə Musayev Mübariz Nadir oğlu arasında bağlanmış 2408-10.02.2015-SM21 saylı, 10 fevral 2015-ci il tarixli təminatlı kredit müqaviləsinin surətindən görünür ki, "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti Musayev Mübariz Nadir oğluna 24 ay müddətinə illik 22 faiz ödəmək şərti ilə 6800 (altı min səkkiz yüz) manat məbləğində kredit vermişdir.

İş materiallarında olan "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin Mərkəzi filialı ilə Yaqublu Orxan Kamal oğlu arasında bağlanmış 2408-10.02.2015- SM21 saylı, 10 fevral 2015-ci il tarixli zaminlik müqaviləsinin surətindən görünür ki, Yaqublu Orxan Kamal oğlu Musayev Mübariz Nadir oğlunun öhdəliklərinin yerinə yetirilməməsinə görə bank qarşısında cavabdehlik daşımağı öhdəsinə götürmüşdür.

İş materiallarında olan 12408-10.02.2015-SM21 saylı, 10 fevral 2015-ci il tarixli kredit müqaviləsinə əlavəyə əsasən Musayev Mübariz Nadir oğlu tərəfindən "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin xeyrinə 10 mart 2015-ci il tarixdən 10 yanvar 2017-ci il tarixədək hər ay 352 (üç yüz əlli iki) manat 80 (səksən) qəpik, 10 fevral 2017-ci il tarixdə isə 351 (üç yüz əlli bir) manat 96 (doxsan altı) qəpik məbləğində ödəniş edilməli idi.

İş materiallarında olan Azərbaycan Respublikası 1 saylı Bakı "ASAN xidmət"

mərkəzi qeydiyyat şöbəsi tərəfindən verilən 06 iyul 2015-ci il tarixli, AZ-I №764186 saylı ölüm haqqında şəhadətnamənin surətindən görünür ki, Musayev Mübariz Nadir oğlu 25 iyun 2015-ci il tarixdə "kaxeksiya" səbəbindən ölmüşdür və bu barədə akt qeydləri kitabında 06 iyul 2015-ci il tarixdə 505 № ilə qeyd edilmişdir.

İş materiallarında olan Musayeva Könül Sabir qızı, Musayev Kamran Mübariz oğlu Əhmədova Nərmin Mübariz qızı və Arabova Ülkər Mübariz qızının notarial qaydada təsdiq olunmuş ərizələrindən görünür ki, onlar 25 iyun 2015-ci il tarixdə vəfat etmiş Musayev Mübariz Nadir oğlundan qalmış miras əmlakdan onlara çatası payı qəbul etmir və etmək istəmirlər.

İş materiallarında olan Yaqublu Orxan Kamal oğlunun "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Mərkəzi filialında olan hesabından çıxarışın surətindən görünür ki, bank tərəfindən onun hesabından 10 avqıist 2015-ci il tarixdə 158 (yüz əlli səkkiz) manat, 21 sentyabr 2015-ci İl tarixdə 355 (üç yüz əlli beş) manat, 22 oktyabr 2015-ci il tarixdə 354 (üç yüz əlli dörd) manat, 23 noyabr 2015-ci il tarixdə 355 (üç yüz əlli beş) manat, 18 dekabr 2015-ci il tarixdə 355 (üç yüz əlli beş) manat olmaqla, cəmi 1577 (min beş yüz yetmiş yeddi) manat məbləğində pul vəsaiti zamindən kredit ödənişi kimi tutulmuşdur.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470.1-ci maddəsinə əsasən zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür.

Həmin Məcəllənin 471-ci maddəsinə əsasən zaminlik müqaviləsi yazılı formada bağlanmalıdır. Yazılı formaya riayət edilməməsi zaminlik müqaviləsinin etibarsızlığına səbəb olur.

Həmin Məcəllənin 472.1-ci maddəsinə əsasən borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər bu Məcəllədə və ya zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.

Həmin Məcəllənin 472.2-ci maddəsinin tələbinə görə əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, faizlərin, borc tutulması üzrə məhkəmə xərclərinin və borclunun öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən digər zərərin əvəzinin ödənilməsi də daxil olmaqla, zamin kreditor qarşısmda borclu ilə eyni həcmdə məsuliyyət daşıyır.

Məhkəmə kollegiyasının iclasında müəyyən olunmuşdur ki, 10 fevral 2015-ci il tarixdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Mərkəzi filialı ilə Musayev Mübariz Nadir oğlu arasında kredit müqaviləsi bağlanmış və bank tərəfindən ona 24 ay müddətinə illik 22 faiz dərəcəsi ödəmək şərti ilə 6800 (altı min səkkiz yüz) manat məbləğində kredit verilmişdir. Bu öhdəliyin təminatı olaraq "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Mərkəzi filialı ilə Yaqublu Orxan Kamal oğlu arasında 10 fevral 2015-ci il tarixli 12408-10.02.2015-SM21 saylı zaminlik müqaviləsi bağlanmışdır. Həmin zaminlik müqaviləsinin 3.3-cü bəndinə əsasən, zaminliklə təmin edilmiş öhdəlik borclu tərəfindən vaxtında icra edilmədikdə və ya lazımınca icra edilmədikdə kreditorun tələbi ilə həmin öhdəlik zamin tərəfindən 3(üç) gün müddətində icra edilməlidir.

Məhkəmə kollegiyasının iclasında həmçinin müəyyən olunmuşdur ki, borclu Musayev Mübariz Nadir oğlu 25 iyun 2015-ci il tarixdə "kaxeksiya" səbəbindən vəfat etmiş, lakin həmin günə qədər bank qarşısındakı öhdəliyini vaxtında və lazımi

qaydada icra etmişdir. Belə ki iş materiallarında olan hesabdan çıxarışdan görünür ki, Musayev Mübariz Nadir oğlu tərəfindən 18 fevral 2015-ci il tarixdə 353 (üç yüz əlli üç) manat, 18 mart 2015-ci il tarixdə 353 (üç yüz əlli üç) manat, 21 aprel 2015-ci il tarixdə 353 (üç yüz əlli üç) manat, 21 may 2015-ci il tarixdə 353 (üç yüz əlli üç) manat, 24 iyun 2015-ci il tarixdə 353 (üç yüz əlli üç) manat məbləğində ödəniş edilmişdir. Kredit müqaviləsinə əlavə olan ödəniş qrafikindən görünür ki, kredit alan tərəfindən həyata keçirilən ödənişlər qrafikə uyğundur. Növbəti ödəniş 10 avqust 2015-ci il tarixdə həyata keçirilməli idi. Lakin kredit alan Musayev Mübariz Nadir oğlu 25 iyun 2015-ci il tarixdə vəfat etmişdir. Borclunun ölümündən sonra isə öhdəliyin icrası məqsədi ilə zamin Yaqublu Orxan Kamal oğlunun cavabdeh "Azərbaycan Beynəlxalq Bankı" ASC-də olan hesabından 10 avqust 2015-ci il tarixdə 158 (yüz əlli səkkiz) manat, 21 sentyabr 2015-ci il tarixdə 355 (üç yüz əlli beş) manat, 22 oktyabr 2015-ci il tarixdə 354 (üç yüz dörd) manat, 23 noyabr 2015-ci il tarixdə 355 (üç yüz əlli beş) manat, 18 dekabr 2015-ci il tarixdə 355 (üç yüz əlli beş) manat olmaqla, cəmi 1577 (min beş yüz yetmiş yeddi) manat məbləğində pul vəsaiti tutulmuşdur.

Məhkəmə kollegiyası hesab edir ki, zaminlik müqaviləsi şərtlə bağlanmış əqd olduğundan öz-özlüyündə öhdəlik yaratmır. Öhdəliyin yaranması üçün isə borclunun öz öhdəliyini icra etməməsi və ya lazımi qaydada icra etməməsi şərti baş verməlidir. Kredit alan ölənə kimi kredit dövrünə münasibətdə öhdəliyi lazımi qaydada icra etmişdir. Borclunun ölümü onun öhdəliyini icra etməməsi və lazımi qaydada icra etməməsi kimi qiymətləndirilə və öhdəliyin icrasının zaminlik müqaviləsi əsasında zamin tərəfindən təmin edilməsinə səbəb ola bilməz. Yəni, zaminin kredit verən qarşısında məsuliyyəti yaranmamışdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 439.4-cü maddəsinə əsasən, öhdəlikdən kənar ödənilmiş pul əsassız varlanma qaydalarına uyğun olaraq geri tələb edilə bilər.

Həmin Məcəllənin 1091.1-ci maddəsinə əsasən, əsassız varlanan o şəxs (varlanmış şəxs) sayılır ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə etsin.

Həmin Məcəllənin 1091.2-ci maddəsinə əsasən, əsassız varlanma yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir.

Həmin Məcəllənin 1092.1-ci maddəsinə əsasən, varlanmış şəxs əldə etdiklərini məhrum olanın tələbi ilə ona qaytarmalıdır. Qaytarma vəzifəsi bu Məcəllənin 157.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla, əldə edilənlərdən götürülən faydaya və əldə edən şəxsin əldə etdiklərinə əsasən və ya onlar üçün kompensasiya kimi əldə etdiyinə və ya qəsdən əldə etmədiyinə də şamil edilir.

Göründüyü kimi zamindən tutulmuş 1577 (min beş yüz yetmiş yeddi) manat məbləğində pul öhdəlikdən kənar ödənilmiş puldur. Borclu zaminliklə təmin edilmiş öhdəliyi ölənə qədər lazımınca icra etdiyindən, zaminin kredit verən qarşısında öhdəliyi yaranmamışdır. Odur ki, öhdəlikdən kənar tutulmuş 1577 (min beş yüz yetmiş yeddi) manat məbləğində pul geri qaytarılmalıdır.

Məhkəmə kollegiyası hesab edir ki, cavabdeh "Azərbaycan Beynəlxalq Bankı" ASC tərəfindən Yaqublu Orxan Kamal oğlunun hesabından tutulan 1577 (min beş

yüz yetrniş yeddi) manat məbləğində pul öhdəlikdən kənar ödənilmiş pul hesab edilməli və ona geri qaytarılmalıdır.

Məhkəmə kollegiyası iddia tələbinin 10 fevral 2015-ci il tarixli 2408-10.02.2015-S21 nömrəli zaminlik müqaviləsinə xitam verilməsi hissəsi ilə bağlı aşağıdakıları qeyd edir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 477-ci maddəsinə əsasən, zaminliyin təmin etdiyi öhdəliyə xitam verildikdə, habelə zaminin razılığı olmadan həmin öhdəlik dəyişdirildikdə və bu dəyişdirilmə onun məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olduqda, əgər zamin yeni borclu üçün cavabdeh olmaq barəsində kreditora razılıq verməmişsə, zaminliklə təmin edilmiş öhdəlik üzrə borc başqa şəxsə keçirildikdə, kreditor borclunun və ya zaminin təklif etdiyi lazımi icranı qəbul etməkdən imtina etdikdə, zaminlik müqaviləsində göstərilmiş onun verilmə müddəti qurtardıqda zaminliyə xitam verilir. Belə müddət təyin edilmədikdə zaminliyə onun təmin etdiyi öhdəliyin içrası vaxtının çatdığı gündən bir il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir. Əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirib bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitarn verilir.

Məhkəmə kollegiyasının iclasında müəyyən olunmuşdur ki, borclu Musayev Mübariz Nadir oğlunun vərəsələrindən yalnız Musaveva Könül Sabir qızı, Musayev Kamran Mübariz oğlu Əhmədova Nərmin Mübariz qızı və Arabova Ülkər Mübariz qızı 25 iyun 2015-c il tarixdə vəfat etmiş Musayev Mübariz Nadir oğlundan qalmış miras əmlakdan onlara çatası paydan imtina etmişlər.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1306.1-ci maddəsinə əsasən, vərəsələr miras qoyanın kreditorlarının mənafelərini alınmış aktivdə özlərindən hər birinin payına mütənasib surətdə birgə borclu kimi tam ödəməyə borcludurlar.

Həmin Məcəllənin 1314-cü maddəsinə əsasən, vərəsələri olmayan əmlak dövlətə keçdikdə, miras qoyanın borcları üzrə o, vərəsə kiıııi məsuliyyət daşıyır.

Məhkəmə kollegiyası hesab edir ki, kredit alanın ölümündən sonra onun kredit borcu vərəsələrə və ya dövlətə keçdikdə, zamin isə onlar üçün cavabdeh olmaq barədə razılıq vermədikdə borcun keçməsi ilə bağlı, kredit alanın mirası olmadıqda isə kredit borcunun başqa şəxsə keçməsi mümkün olmadığından kredit öhdəliyinin xitam olunması səbəbi ilə zaminlik xitam olunacaqdır. Lakin məhkəmə kollegiyasının iclasmda Musayev Mübariz Nadir oğlunun mirasının olub-olmaması, onun vərəsələrə keçib keçməməsi və ya dövlətə keçməsi ilə bağlı heç bir sənəd təqdim edilmədiyindən və zaminlik müqaviləsinə yalnız Azərbaycan Respublikası Mülki Məcəlləsinin 477-ci maddəsində nəzərdə tutulan hallarda xitam verilməli olduğundan, kredit alanın ölümü zaminliyin təmin etdiyi öhdəliyə xitam verilməsi yaxud borcun başqa şəxsə keçməsi kimi qiymətləndirilə bilməz. Buna görə də iddia tələbi 10 fevral 2015-ci il tarixli 2408-10.02.2015-S21 nömrəli zaminlik müqaviləsinə xitam verilməsi hissəsində təmin edilə bilməz.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 217.3-cü maddəsinin tələbinə görə, qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Məhkəmə iş üzrə sübutlara Mülki Prosessual Məcəlləsinin 88-ci maddəsinin tələblərinə uyğun olaraq obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin

sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət vermiş, iddia ərizəsində qoyulmuş tələblər üzrə nəticəyə gələrkən isə Mülki Prosessual Məcəlləsinin 217.4-cü maddəsində təsbit edilmiş bilavasitəlilik prinsipinə uğun olaraq yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlara əsaslanmışdır.

Azərbaycan Respublikası MPM-nin 77.1-ci maddəsinə əsasən hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 81-ci maddəsinə əsasən, qanuna və ya digər normativ hüquqi aktlara əsasən, müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübutlarla təsdiq oluna bilməz.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəllәsinin 14.2-ci maddəsinə əsasən məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Həmin Məcəllənin 217.4-cü maddəsinə əsasən məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

Məhkəmə kollegiyası hesab edir ki, iddianı qismən təmin etməkdə birinci instansiya məhkəməsi haqlı olmuşdur. Apellyasiya şikayətinin dəlilləri qətnamənin ləğv olunması üçün əsas ola bilməz.

Şərh olunanlara əsasən məhkəmə kollegiyası hesab edir ki, Bakı şəhəri Nəsimi rayon Məhkəməsini 18 yanvar 2016-cı il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmalı, cavabdeh tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməməlidir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 384.0.1-ci maddəsinə əsasən apellyasiya instansiya məhkəməsi qətnaməni dəyişdirmədən, apellyasiya şikayətini isə təmin etmədən saxlaya bilər.

Qeyd olunanlara əsasən və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 382, 384, 392, 393, 401, 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

qət etdi:

Cavabdeh «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin apellyasiya şikayəti təmin edilməsin.

Bakı şəhəri Nəsimi rayon Məhkəməsinin 18 yanvar 2016-cı il tarixli 2(006)-256/2016 saylı qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qətnamədən şikayət verilməzsə, qəbul edildiyi gündən 2 ay keçdikdən sonra qanuni qüvvəyə minir.

Qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına kassasiya şikayəti verilə bilər.

Sədrlik edən:imza.

Hakimlər: imzalar.

Düzdür:

Hakim: Xuraman Məhərrəmova